# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299, № 8, maddə 550, № 10, maddə 639; 1999, № 2, maddə 150; 2000, № 5, maddə 374, № 7, maddə 559, № 8 (III kitab), maddə 643, № 9, maddələr 690, 699, 700, № 10, maddə 770; 2001, № 4, maddə 289, № 8, maddə 561; 2002, № 4 (II kitab), maddələr 209, 212; 2005,№ 1, maddə 56; 2006, № 2, maddə 180, № 4, maddə 367, № 7, maddə 652; 2008, № 7, maddələr 672, 687; 2009, № 9, maddələr 742, 744, № 12, maddələr 1061, 1071; 2010, № 7, maddə 706, № 12, maddə 1114; 2011, № 1, maddə 68, № 8, maddə 774; 2012, № 1, maddə 39, № 7, maddə 779, № 10, maddə 1020; 2013, № 11, maddə 1458; 2014, № 4, maddə 456; 2015, № 7, maddə 895; 2016, № 4, maddə 801, № 8, maddələr 1432, 1460, № 12, maddə 2213; 2017, № 2, maddə 312, № 6, maddə 1242, № 8, maddə 1625; 2018, № 4, maddə 826; 2019, № 1, maddə 154, № 5, maddə 947, № 8, maddə 1468; 2020, № 2, maddə 220; 2021, № 1, maddə 89, № 2, maddə 203, № 6 (IV kitab), maddə 680, № 11, maddələr 1256, 1260; 2022, № 1, maddə 85, № 4, maddələr 390, 406; Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 dekabr tarixli 444 nömrəli Qərarı) aşağıdakı məzmunda 4.23-1-ci bənd əlavə edilsin:

"4.23-1. "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən, Mingəçevir Yüksək Texnologiyalar Parkının rezidenti olan hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs tərəfindən gömrük rüsumlarından azad olunmaqla idxal edilən qurğuların, hissə və ləvazimatların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur).".

2. Bu Qərar 2022-ci il 28 avqust tarixindən tətbiq edilir və 2025-ci il 28 avqust tarixinə qədər qüvvədədir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 18 fevral 2023-cü il

№ 55

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 18 fevral tarixli 55 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

# Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən, Mingəçevir Yüksək Texnologiyalar Parkının rezidenti olan hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs tərəfindən gömrük rüsumlarından azad olunmaqla idxal edilən qurğuların, hissə və ləvazimatların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə

## SİYAHISI

| XİFMN üzrə kodu | Mal mövqelərinin adları |
|---|---|
| 1 | 2 |
| 8471 30 000 0 | – ən azı məlumatın işlənilməsi mərkəzi blokundan, klaviaturadan və displeydən ibarət olan, kütləsi 10 kq-dan çox olmayan portativ hesablayıcı maşınlar |
| 8471 41 000 0 | hesablayıcı maşınlar, digərləri:<br>– – bir korpusunda ən azı məlumatın işlənilməsi mərkəzi bloku və giriş və çıxış qurğuları olan hesablama maşınları, birləşmiş və ya birləşməmiş |
| 8471 49 000 0 | hesablayıcı maşınlar:<br>– – digərləri, sistem şəklində təqdim edilmiş |
| 8471 50 000 0 | 8471 41 və ya 8471 49 yarımmövqelərində təsvir edilənlərdən fərqli olan məlumatların işlənilməsi blokları, bir korpusda bir və ya iki aşağıda göstərilmiş qurğular olan və ya olmayan: yaddaş qurğuları, giriş qurğuları, çıxış qurğuları |
| 8471 60 600 0 | – bir korpusda yaddaş qurğusu olan və ya olmayan giriş və ya çıxış qurğuları:<br>– – klaviatura |
| 8471 70 300 0 | yaddaş qurğuları:<br>– – – – optiki, maqnit-optiki də daxil olmaqla |
| 8471 70 500 0 | yaddaş qurğuları:<br>– – – – – sərt maqnit disklərdə |
| 8471 70 980 0 | hesablayıcı maşınlar və onların blokları; başqa yerdə adları çəkilməyən və ya daxil olunmayan maqnit və ya optik hesablayıcı qurğular, kodlaşdırılmış formada |

| 1 | 2 |
|---|---|
| | məlumatı informasiya daşıyıcılarına köçürmək üçün maşınlar və informasiyanın işlənməsi üçün oxşar maşınlar:<br>– – yaddaş qurğuları:<br>– – – digərləri |
| 8471 80 000 0 | hesablayıcı maşınların digər qurğuları |
| 8473 30 200 0 | 8471 mal mövqeyindəki maşınların hissələri və ləvazimatları:<br>– – elektron modullar |
| 8473 30 800 0 | 8471 mal mövqeyindəki maşınların hissələri və ləvazimatları:<br>– – digərləri |
| 8523 51 100 0 | 37-ci qrupun məmulatlarından başqa, disklərin hazırlanması üçün matrisa və master-disklər də daxil olmaqla, yazılmış və ya yazılmamış, səsyazma və ya başqa hadisələr üçün disklər, lentlər, enerji asılılığı olmayan məlumatların saxlanılması üçün sərt cisimli qurğular, “intellektual kartlar” və digər səsyazma və ya digər hadisələr üçün daşıyıcılar:<br>– – enerji asılılığı olmayan məlumatların saxlanılması üçün sərt cisimli qurğular:<br>– – – yazılmamış |
| 8528 52 100 0 | digər monitorlar:<br>– – – yalnız və ya əsasən 8471 mal mövqeyinin hesablayıcı sistemlərində istifadə olunan |
| 8528 59 900 0 | – – digərləri:<br>– – – rəngli |
| 8542 31 90 | elektron inteqral sxemlər: prosessorlar və kontrollerlər, yaddaş qurğuları ilə, dəyişdiricilərlə, məntiqi sxemlərlə, gücləndiricilərlə, sinxronizatorlarla və ya digər sxemlərlə birləşdirilmiş və ya birləşdirilməmişlər:<br>– – – digərləri |

---